**Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında sərbəst ticarət haqqında 30 sentyabr 1992-ci il tarixli Sazişin 26 noyabr 1992-ci il tarixdə imzalanmış sərbəst ticarət rejimindən istisnalar barədə Protokoluna əlavə və dəyişikliklər edilməsi haqqında Protokolun imzalamaq səlahiyyətinin verilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında sərbəst ticarət haqqında 30 sentyabr 1992-ci il tarixli Sazişin 26 noyabr 1992-ci il tarixdə imzalanmış sərbəst ticarət rejimindən istisnalar barədə Protokoluna əlavə və dəyişikliklər edilməsi haqqında Protokolun imzalanması səlahiyyəti Azərbaycan Respublikasının ticarət naziri Hüseynqulu Seyid oğlu **Bağırova** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun imzalanması səlahiyyətinin Azərbaycan Respublikasının ticarət naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 28 noyabr 2000-ci il
581

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 noyabr, № 11.- S.4685-4686.